# Vətən sevdalısı



**Könlümün sevgili məhbubu mənim,**
**Vətənimdir, vətənimdir, vətənim.**
***Abbas Səhhət.***

XIX əsrin sonu XX əsrin əvvəli Şərq, Qərb tarixində müstəbid rejimlərə, mütləqiyyət əsarəti və zülmünə, milli-mənəvi hüquqsuzluğa qarşı milli-azadlıq hərəkatları, müharibələrə qarşı kütləvi etiraz dalğalarının yüksəldiyi bir dövr kimi xarakterizə olunur. Bütün bunlar təkcə siyasi hərəkat kimi məhdudlaşmır, şüurlarda, düşüncələrdə, həyatda, cəmiyyətdə yeni fəlsəfi nəzəriyyələrin yaranması dövrü kimi də özünü büruzə verirdi. O dövrün ziyalıları öz əsərlərində yeni ideyalar irəli sürür, onların həyata keçməsi uğrunda mübarizə aparırdılar. Azərbaycanda da yeni həyat, yeni təfəkkür modelləri irəli sürülürdü. Ziyalılar bu işdə öndə gedir, nicat yolunu ilk növbədə xalqın maariflənməsində görürdülər. Anadilli mətbuat əsl tribun rolunu oynayırdı. Əli bəy Hüseynzadənin rəhbərliyilə nəşrə başlayan "Füyuzat" jurnalı dövrün ziyalılarını ətrafına cəlb edir, yaradıcılıqlarına qayğı ilə yanaşır, təsir göstərir, onların dünyagörüşlərində milli ruh oyadırdı. A.Şaiqin dediyi kimi, "o vaxta qədər bir beyt belə yazmayanları da dilləndirirdi". Məcmuənin sayılıb-seçilən yazarları, tanınmış imzaları arasında Abbas Səhhət də var idi... Vətən şairi. Onu belə tanıyır, belə sevirdilər.

1874-cü il iyulun 11-də Şamaxıda dünyaya göz açan Mehdizadə Abbas Əliabbas oğlu - Abbas Səhhət ziyalılığın zirvəsində dayanırdı, alilik onun taleyinə yazılmışdı. Tale yazısından isə qaçmaq çətin olur. O da qaça bilmədi. Hər bir addımı ilə vətəninə, millətinə xidmət etməyə çalışdı və buna nail oldu. Əslində bu da bir tale yazısı idi. Görkəmli ədəbiyyatşünas-alim Abbas Zamanov "Abbas Səhhət" adlı məqaləsində yazırdı: "Abbas Səhhət vətənlə qırılmaz tellərlə bağlı şairdir. Heç bir qüvvə onu varlığı ilə sevdiyi vətənindən ayıra bilməz. O, həyatının ən ağır dəqiqələrində belə vətən eşqi ilə yaşayır". Elə bu eşq, bu sevda ilə deyirdi:

***Vətən əcdadımızın mədfənidir,***
***Vətən övladımızın məskənidir...***

Özündəki ərdəm, qeyrət, təpər və bir də adi ürəklərə sığmayan ali, Vətənə, xalqa qarşı təsvirə və ölçüyə gəlməyən bir sevgi duyğusu yaşadırdı Abbas Səhhət. "Yeni üslublu məktəblər" ideyasının yorulmaz müdafiəçisi olan Abbas Səhhəti Əli bəy Hüseynzadənin banisi olduğu Azərbaycan romantik ədəbiyyatı cərəyanına gətirib çıxaran da bu duyğu idi. Abbas Səhhət o dövrdə Bakıda nəşr olunan bütün jurnal və qəzetlərdə, xüsusən "Füyuzat" (1906-1907-ci illər) məcmuəsində də mütəmadi qaydada çıxış edirdi. Tərcüməçilik fəaliyyəti ilə də məşğul olan ədib həmin dövrdə Azərbaycan oxucusunu rus (M.Lermontov, A.Puşkin, Krılov, Nadson, Maksim Qorki və b.), fransız (Hüqo, Müsse, Sülli-Prüdom və b.), alman şair və yazıçılarının əsərləri ilə tanış edirdi.

Şərqin Nizami, Hafiz, Sədi kimi şairlərinin yaradıcılığına böyük dəyər verən, ondan ruhlanan, bəhrələnən Abbas Səhhət türk xalqlarının ədəbiyyatları ilə yaxından maraqlanır, xüsusilə Tofiq Fikrətin yaradıcılığına xüsusi diqqət göstərirdi. Azərbaycanda liberal burjuaziya ideyasını müdafiə edir, İslam dəyərlərindən imtinaya qəti etiraz edərək, əsərlərində "ümummüsəlman qərbçiliyi" ideyasını dəstəkləyirdi.

Abbas Səhhətin ilk şeiri 1904-cü ildə "Şərqi-Rus" qəzetində nəşr olunmuşdu. Sonralar şeir, məqalə və hekayələrlə dövri mətbuatda çıxış edən şairin poeziyasının əsas mövzusu Vətən idi:

***Vətənim verdi mənə nanü-nəmək,***
***Vətəni məncə unutmaq nə demək?!***

- deyən şair hər zaman Vətənini tərənnüm edir, onun müqəddəsliyindən yazır, bu məfhumun insan həyatı üçün vacibliyindən söz açırdı. Vətəni Azərbaycanla qürur duyan şair, həm də müsəlman, bir qafqazlı olmasının da xoşbəxtliyini yaşayır: "Qafqaz qitəsidir mənim vətənim", - deyirdi. Bu mənada, nümunə gətirdiyimiz "Vətən" adlı şeiri həmin mövzuda yazılan bütün şeirlər arasında xəlqiliyi ilə daha çox fərqlənir. Hürriyyət və milliyyət şairi Vətən sevdasını əməldə də göstərirdi. Humanist əməlləri ilə vətəndaşlığını sübuta yetirən Abbas Səhhət bacarıqlı müəllim olmaqla yanaşı, həm də xeyirxah həkim idi. Doğrudur, çar hökuməti onun İran mənşəli tibb diplomunu etibarlı hesab etməmiş, lakin o, bu sahədəki bilikləri ilə insanlara xidmət etməyə çalışmışdı. Şairin dostu qocaman pedaqoq Cəmo Cəbrayılbəyli öz xatirələrində yazırdı: "O, çox insanpərvər adam idi. Kim olursa-olsun, dərhal xəstə üstünə gedər, müalicə edər, təsəlli və ümid verərdi. Çox zaman öz pulu ilə dərman alar və yaxud evindən gətirərdi".

"Vətəni sevmək imandandır", - deyiblər. Vətəni sevmək həm də onun dilini sevməkdir. Abbas Səhhət də ana dilini sevir, ona xor baxanlara, bu dildə danışmağa utananlara xitabən "Müsəlman ürəfaları" adlı şeirində: "Rus, firəng ləhcəsi deyir "bon"dur, Türk dilini sevməyir: "moveton"dur", - söyləyərək tutarlı cavab verirdi.

Tale yazısından qaçmaq olmur, o da qaça bilmədi, dedik. Az, cəmi 44 il, həm də onu şərəflə yaşamaq da şairin taleyinə yazılmışdı. Erməni vandalları tərəfindən 1918-ci ildə Şamaxıdakı evi, əsərlərinin çoxu yandırılan, məcburən Gəncəyə köçən, Vətəninə, millətinə qarşı törədilən vəhşiliklərə dözməyən, iflic olan, bu dərdlə də dünyasını dəyişən Abbas Səhhət: "Ətimi şişə çəksələr də, vətənimi, millətimi atmaram" - deyərək əqidəsinə sadiq qaldı, haqq yolundan dönmədi:

***Vətəni sevməyən insan olmaz,***
***Olsa ol şəxsdə vicdan olmaz!***

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**